QİSMƏT CƏFƏROV*

# XOMSKİNİN DİLÇİLİK ARAŞDIRMALARINDA DEDUKTİV METOD


## XÜLASƏ

Məqalədə N.Xomski təlimində deduktiv metoddan istifadə texnikası araşdırılır. N.Xomskinin dilçilik araşdırmaları ilə deduktiv metod yeni bir mərhələ təşkil etmişdir. Belə ki görkəmli dil mühəndisinin dilçiliyi texniki fənlərə yaxınlaşdırması deduktiv yanaşmanın imkanlarını genişləndirmişdir. Əlbəttə, deduktiv metodun N.Xomskiyə qədər də müəyyən ənənəsi olmuşdur. Lakin N.Xomskinin araşdırmaları bu metoddan istifadənin əsasında dayanmaqla riyazi dilçiliyə təsir etmişdir.


**Açar sözlər:** *dil, metod, deduktiv, Naum Xomski.*

Dilçilik tarixində bu və ya digər paradiqmanın yaranması metod dəyişikliklərinin meydana çıxması ilə özünü göstərir. Lakin onu da qeyd etmək lazımdır ki, həmin dəyişiklik bəzən özünü aydın şəkildə göstərsə də, bir çox hallarda uzun zaman şübhə doğurur və ya elmin inkişafı baxımından nə qədər əhəmiyyətli olub-olmaması etibarilə polemikalar ilə nəticələnir.

Dil haqqındakı elmin ən azı üç istiqaməti mövcuddur: həm humanitar, həm texniki, həm də təbiət elmlərinə məxsus xüsusiyyətləri daşıdığına görə dilə yanaşmada bəzən deduksiya, bəzən də induksiya ön plana keçir. Bu da bir həqiqətdir ki, dilçiliyin riyazi elmlərə yaxınlaşması (N.Xomskinin təcrübəsində olduğu kimi) deduktiv metodun rolunu xeyli artırmışdır.

XX əsrin 50-ci illərindən sonra Amerika dilçiliyində deskriptivizmin ardınca başlayan linqvistik tədqiqatlar generativ qrammatikaya (dilçiliyə) gətirən bütöv bir axının əsasını qoydu ki, həmin axının nə vahid bir istiqamətdə, nə də polemikasız, müxtəlif ideyaların və mövqelərin maneçiliyi olmadan getdiyini düşünmək doğru olmazdı. Lakin bir təmayül heç cür şübhəyə əsas vermirdi ki, dilçilikdə deduktiv metodun nüfuzu induktiv metodla müqayisə edilməyəcək qədər artır və bu yöndəki tədqiqatlar həm ABŞ-ın, həm də ingilis dilinin hüdudlarını aşaraq bütün dünyaya yayılırdı. Əlbəttə, istər ən çox təqdir, istərsə də ən çox tənqid olunan N.Xomskinin əsərləri idi.

N.Xomski "Sintaktik strukturlar"da öncə yaratdığı nəzəriyyənin metodunu əsaslandırmalarını təqdim edir. O göstərir ki, araşdırma həm geniş mənada, yəni semantikaya əks olaraq, həm də dar mənada, yəni fonologiya və morfologiyaya əks olaraq sintaksisə - sintaktik strukturlara həsr olunmuşdur. Və bu araşdırma linqvistik strukturun formallaşdırılmış ümumi nəzəriyyəsini qurmağa edilən cəhdin tərkib hissəsidir. Yeni nəzəriyyə müəllifi linqvistik strukturun modellərini qurarkən "məntiqi incəliklərə riayət etməkdən, yaxud linqvistik təhlilin ənənəvi metodlarını qaydaya salmaqdan" söhbət getmədiyini xatırlatmaqla yanaşı yazır: *"Mən düşünürəm ki, linqvistika nəzəriyyəsinin dəqiq və "texniki" inkişafının dəyərini şübhə altına qoyan dilçilər, görünür, nəzəriyyənin izahında ciddi metodların məhsuldar imkanlarını vəziyyətə uyğun və ya yayğın formullaşdırma düzəlişlərinin köməyi ilə yersiz nəticələrdən qaçmaq cəhdlərilə qarşılaşmadan onları linqvistik materiala dəqiq tətbiq etməyin məhsuldar imkanlarını qiymətləndirə bilməmişlər"* [Chomsky: 1957, s.5].

* BDU-nun ümumi dilçilik kafedrasının doktorantı, *ceferov.qismet@inbox.ru*

N.Xomskinin yeni qrammatika yaratmaq sahəsindəki çalışmalarının ilk mərhələsində onun metoduna şübhə edənlərə bu cür prinsipial mövqedən qarşı çıxması ona görə təbii idi ki, tədqiqat metodunun dəqiqləşdirmə və "texnikiləşdirmə" istiqamətində dərinləşdirilməsi spontan bir hadisə deyildi. Amerika dilçiliyinin, o cümlədən N.Xomskinin sələflərinin, eləcə də bilavasitə müəllimlərinin tədqiqat təcrübəsində artıq bir neçə mərhələdən keçmişdi. "Sintaktik strukturlar"ın ön sözündə bu barədə deyilir: *"Konkret olaraq biz linqvistik strukturun üç modelini öyrənir və onların imkanlarını aydınlaşdırmağa çalışırıq. Biz görürük ki, dilin bir sıra olduqca sadə nəzəri-kommunikativ modelləri, eləcə də daha güclü o modelləri ki, "müstəqim tərtibçilər üzrə təhlil" ümumi məlum olan əhəmiyyətli hissəyə daxildir, qrammatik təsvirin məqsədlərinə əsaslı şəkildə xidmət edə bilməz. Bu modellərin tətbiqinin öyrənilməsi ilə linqvistik strukturların bəzi tərəfləri aydınlaşacaq və biz linqvistik nəzəriyyədə bir sıra boşluqlar tapacağıq ..."* [Chomsky: 1957, s.6].

N.Xomski əlavə edir ki, *"Biz linqvistik strukturun üçüncü – transformasion modelini inkişaf etdiririk ki, o, bəzi mühüm münasibətlərdə müstəqim tərtibçilər modelindən daha güclü olub həmin münasibətləri təbii olaraq izah edir"* [Chomsky: 1957, s.6].

Əlbəttə, yeni metod axtarışları dilin sintaktik strukturunun daha adekvat təsvi-rində son mərhələ olmasa da, irəliyə doğru keyfiyyətcə yeni bir addım idi.

"Sintaktik strukturlar"ın "Giriş"ində müəllif tədqiqat obyektinə metodoloji münasibətin detallarına nüfuz edərək yazır: *"Sintaksis – cümlələrin qurulması prinsipləri və üsulları haqqında təlimdir. Hər hansı dilin sintaktik tədqiqi elə bir qrammatikanın qurulmasından ibarətdir ki, həmin dilin cümləsinin müxtəlif cür törəməsinin mexanizmini görmək imkanı versin. Daha geniş planda dilçilər uğurla fəaliyyət göstərən qrammatikaların dərin, fundamental xüsusiyyətlərinin müəyyənləşdirilməsi problemi qarşısında dayanırlar"* [Chomsky: 1957, s.11]. Və tədqiqatçı belə bir qənaətə gəlir ki, *"bu araşdırmaların son nəticəsi linqvistik strukturun elə bir nəzəriyyəsi olmalıdır ki, konkret qrammatikaların təsvir mexanizmi konkret dillərə müraciət olunmadan, mücərrəd öranilmə kimi təqdim edilsin. Bu cür nəzəriyyənin məsələlərindən biri istənilən dil üçün həmin dilin cümlələrinin bütün özünəməxsusluqlarını əks etdirən qrammatika seçiminin ümumi metodunu işləyib hazırlamaqdır"* [Chomsky: 1957, s.11].

Zahirən elə görünə bilər ki, burada induksiyanın rolu deduksiyadan öncə çəkilir, ancaq nəzərə alsaq ki, xüsusi qrammatikanın tədqiqində, ayrıca bir dilin cümlə strukturlarının öyrənilməsində elə əvvəldən deduktiv yanaşma həlledicidir. Və bir metodla obyekt arasındakı sözügedən münasibəti sxematik olaraq aşağıdakı kimi təsəvvür edə bilərik:



N.Xomski sintaktik strukturların araşdırılmasının metodiki texnologiyalarını müəyyənləşdirərkən göstərir ki, *"linqvistik nəzəriyyədə mərkəzi olan "linqvistik səviyyə"dir. Hər bir linqvistik səviyyə (məsələn, fonoloji, morfoloji, eləcə də müstəqim tərtibçilər səviyyəsi), mahiyyət etibarilə, qrammatika qurmaq üçün bizim sərəncamımızda olan təsvir mexanizmlərinin məcmusundan ibarətdir; bu, söyləmlərin təqdiminin müəyyən üsuludur. Biz onun ixtiyarındakı səviyyələr dəstinə uyğun gələn qrammatika tiplərini ciddi və dəqiq şəkildə işləyib hazırlamaq, sonra isə təbii dillər üçün həmin tipli sadə və əyani qrammatikalar qurmağın mümkünlüyünü araşdırmaqla linqvistik nəzəriyyənin adekvatlığını qiymətləndirə bilərik"* [Chomsky: 1957, s.11]. Və əlavə edir ki, *"linqvistik səviyyələrin get-gedə qrammatik təsvirin mürəkkəbləşməsinə uyğun linqvistik səviyyə ardıcıllığına baxaraq biz linqvistik strukturların bir sıra müxtəlif konsepsiyalarını həmin üsulla öyrənir və sübut etməyə çalışır ki, əgər o, məsələn, ingilis dilinin məqbul qrammatikasını işləyib hazırlamaq istəyirsə, linqvistik nəzəriyyə ən azından bu səviyyələri ehtiva etməlidir. Nəhayət, biz göstərməyə çalışırıq ki, dilin strukturunun bu cür sırf formal öyrənilməsi semantikanın bəzi problemlərinə də tətbiq edilə bilər"* [Chomsky: 1957, s.11-12].

"Sintaktik strukturlar" dilçilik, eləcə də, texniki və təbiət elmləri üzrə mütəxəssislər arasında nə qədər məşhurlaşsa da, onun opponentlərinin də sayı az deyildi. Məsələn, ixtisasca filosof olan Hilari Putnam "Qrammatika nəzəriyyəsinin bəzi mübahisəli məsələləri" məqaləsində [Putnam: 1961] N.Xomski ilə aşağıdakı kifayət qədər fundamental məsələlərdə mübahisə edirdi: 1) düzgün olmayan söyləmlərin tanınması; 2) qrammatika ilə semantika arasındakı hüdud xətləri; 3) mənanın müstəqilliyi; 4) qrammatikanın muxtariyyatı; 5) transformasion qrammatikaların təsvir problemi.

N.Xomski isə "Sintaktik strukturkar"dan sonra çap etdirdiyi məqalələrdə öz nəzəriyyəsini həm müdafiə etmiş, həm də inkişaf etdirmişdir (məsələn, bax).

Dilə, onun qrammatikasına, nəhayət, cümlə quruluşuna deduktiv yanaşmada "Sintaktik nəzəriyyənin aspektləri" irəliyə doğru ciddi addım idi. Və tamamilə təbiidir ki, "Aspektlər" geniş bir "Metodoloji giriş"lə başlayır. Müəllif göstərir ki, *"bu əsər sintaktik nəzəriyyənin və ingilis sintaksisinin müxtəlif məsələlərinə toxunacaqdır ... Linqvistik nəzəriyyə, ilk növbədə, tamamilə eynicinsli nitq ümumiliyində mövcud olan ideal "danışan – dinləyən"i nəzərdə tutur ki, onlar dillərini kamil bilir və onun real işlədilməsi zamanı öz dil biliklərindən istifadədə yaddaşın məhdudlaşması, fikir dağınıqlığı, diqqətin və marağın yayınması, səhvlər (təsadüfi və ya qanunauyğun) kimi mahiyyətə aid olmayan qrammatik şərtlərdən asılı deyillər"* [Chomsky: 1965, s.3]. Və əlavə edir: *"Mənə elə gəlir ki, müasir ümumi dilçiliyin əsasını qoyanların mövqeyi məhz belə olmuş və ona yenidən baxmaq üçün heç inandırıcı əsas təklif olunmamışdır"* [Chomsky: 1965, s.3-4].

Göründüyü kimi, "Sintaktik strukturlar"la müqayisədə "Sintaktik nəzəriyyənin aspektləri" metod axtarışlarında deduktivliyə daha çox meyillidir ki, bu, müəllifin yeni dilçilik nəzəriyyəsinin mənbələrini əsaslandırmaq cəhdlərində də özünü göstərir. Birinci mərhələ, görünür, strukturalizmin ardınca F.de Sössür nəzəriyyəsindən də imtina olunmasıdır ki, bunun arxasınca V.fon Humboldtdan başlamaq meyli ortaya çıxır. Həmin meylin Por-Royala – Kartezian dilçiliyinə gedib çıxacağı da əvvəlcədən hiss olunur.

N.Xomski yazır: *"Beləliklə, biz kompetensiya (danışan – dinləyənin öz dilini bilməsi) ilə işlətmə (dilin konkret situasiyalarda real istifadəsi) arasında fundamental fərq qoyuruq. Yalnız ideallaşdırılmış halda ... işlətmə kompetensiyanın bilavasitə əksidir. Əslində isə o,*

*kompetensiyanı bilavasitə əks etdirə bilməz. Təbii nitqin yazıya alınması göstərir ki, onda yanılmalar, qaydadan kənara çıxmalar, söyləmin ortasında planın dəyişməsi və s. nə qədər çoxdur"* [Chomsky: 1965, s.4].

Şübhəsiz, bu mühakimələrində N.Xomski F.de Sössürdən fərqli anlayışlarla düşünür. Ona görə də belə bir qənaətə gəlir ki, *"dili mənimsəyən uşaq kimi dilçinin də vəzifəsi dildən istifadə faktlarından onların əsasında dayanan sistemin qaydalarını aşkarlamaqdır. O qaydaları ki, danışan – dinləyən mənimsəmişdir və o qaydaları ki, o, real işlətmədə istifadə etməkdədir. Buradan da belə bir nəticə çıxır ki, forma olaraq desək, linqvistik nəzəriyyə mentalist səciyyəlidir, çünki o, real davranışın əsasında duran psixi reallıqların əldə edilməsi ilə məşğul olur"* [Chomsky: 1965, s.4].

Nəhayət, "Sintaktik nəzəriyyənin aspektləri" müəllifi öz nəzəriyyəsinin "diaxron" mövqeyini aşağıdakı şəkildə müəyyən edir:

*"Mənim irəli sürdüyüm qarşılaşdırma Sössürün dil və nitq qarşılaşdırması ilə bağlıdır; ancaq onun yalnız vahidlərin sistematik inventarından ibarət dil konsepsiyasını aradan qaldırıb tezliklə Humboldtun törəmə prosesləri sistemi kimi gizli kompetensiya konsepsiyasına qayıtmaq zəruridir"* [Chomsky: 1965, s.4].

Sintaksis nəzəriyyəsinin bir mühüm xüsusiyyəti də ondadır ki, o məhz dilin sintaktik səviyyəsində onun "yaradıcılıq" imkanlarının genişliyini, hətta daha doğru olar deyək ki, tükənməzliyini ilk növbədə nəzəri olaraq nümayiş etdirir.

N.Xomskinin dilə deduktiv baxışları onun "Dil və təfəkkür" əsərində daha güclü hipotetik miqyas almışdır. Əsərin "Ön söz"ündə müəllif qeyd edir ki, *"dilçilik tarixinə dair tədqiqatların vəziyyətini nəzərə alarkən keçmişə aid işləri dəyərləndirmək cəhdi belə tamamilə ilkin hesab edilməlidir. Müasir dilçilik termin illüziyası mövcudluğu fikrini qəbul edir. İnanıram ki, "insanın davranışı haqqında olan müasir elmlər" müəyyən mənada "spekulyasiyadan elmə" doğru keçidə nail olublar ..."* [Xomski: 2006, s.16].

Müəllif *"təfəkkürün tədqiqinə linqvistik töhfə", əgər belə demək mümkünsə, inkişaf "paradiqma"larını – keçmişini, indisini və gələcəyini araşdırarkən göstərir ki, "əlbəttə, rasional düşüncəyə malik hər hansı bir şəxs dəqiq təhlilə və diqqətli təcrübəyə üstünlük verəcək, bununla belə əhəmiyyətli dərəcədə hiss edirəm ki, "biheviorizmlə məşğul olan elmlər" təbiət elmlərinin üzdəki xüsusiyyətlərini sadəcə təqlid edirlər; onların elmi səciyyəsinin çoxu məsələnin predmetindən uzaqlaşmaq və diqqətin daha çox ikinci dərəcəli məsələlərə yönəldilməsinə aiddir"* [Xomski: 2006, s.16].

N.Xomskinin bu narahatlığı istər-istəməz ona görə müəyyən maraq doğurur ki, görkəmli tədqiqatçı dil haqqındakı düşüncələrin çox müxtəlif istiqamətlərə yönəldiyi dövrün intellektual-metodoloji əhvali-ruhiyyəsini əks etdirir. Həmin dövrdə dilçilik araşdırmaları aşağıdakı sxemdə təqdim etdiyimiz mərhələlərdən keçərək metodiki axtarışların elə bir məqamına gəlib çıxmışdı ki, hər şey həm məqbul, həm də mübahisəli idi:



Məsələ burasında idi ki, bunlar hələ bilavasitə elmi fikir səhnəsində olan axtarış istiqamətləri və ya cərəyanlar idilər; əslində, ənənəvi dilçilik araşdırmaları da müəyyən səviyyədə davam etməklə yanaşı, müxtəlif elmlərin dil fenomeninə artan maraqlardan irəli gələn tədqiqat təmayülləri və üsulları da ümumi prosesə, yaxud mənzərəyə az təsir göstərmirdi.

"Dil və təfəkkür" müəllifi davam edir: *"... Eksperimental tədqiqatda və ciddi rəqəmsal prosesdə əldə edilmiş səthi bilikdən daha əhəmiyyətli və mühüm sosial məsələlərə "ekstrapolyasiya" etmək təbii, lakin uğursuz meyil doğurur. Bu ciddi məsələdir. Mütəxəssislər onların anlamının və indiyədək əldə etdikləri nəticələrin real sərhədlərinin aydınlaşdırılması məsuliyyətini duyurlar və inaniram ki, bu sərhədlərin diqqətli təhlili ictimai və insan davranışı sahəsində elmlərin, demək olar ki, hər birində indiyədək əldə olunmuş nəticələr bu cür "ekstrapolyasiya"nı tamamlayacaqdır"* [Xomski: 2006, s.17].

Görkəmli dil mühəndisi və nəticə etibarilə, filosofu "tarixdən gəlməy"in, tarixdə mövcud olmuş bir sıra ideyaları yenidən dirçəltməyin metodoloji əhəmiyyətini diqqətə çatdırır qeyd edir ki, *bəzi təhlillər göstərir ki, erkən fikir və fərziyyələrin məhsulu olan əsərlərin sadəcə diqqətdən kənarda qala bilməyəcəklərinə inanmaq olar.Yəni bu gün həyata keçirilən ciddi tədqiqat əhəmiyyətli dərəcədə möhkəm zəmin üzərində dayanmalıdır*[Xomski: 2006, s.17].

Məlum olduğu kimi, burada söhbət, ilk növbədə, XVII əsrdən, daha dəqiq desək, Por-Royal qrammatikasından gedirdi ki, N.Xomskinin həmin mənbəyə, eləcə də onun meydana çıxdığı dövrün linqvistik-fəlsəfi görüşlərinə istinadı bütöv bir elmi-nəzəri sistemin dirçəldilməsilə nəticələndi.

"Dil və təfəkkür"ü Azərbaycan dilinə çevirən A.Məmmədov kitabın ön sözündə yazır ki, müəllif *"formal transformasiyon nəzəriyyələrin məzmun aspektlərini araşdırır və bilavasitə dil ilə təfəkkür arasında qarşılıqlı münasibətlər sistemini yaratmağa çalışır. XX əsrin əvvəllərində strukturalistlər tərəfindən unudulmuş dil və təfəkkür problemi yenidən diqqət mərkəzinə gətirilir"* [Xomski: 2006, s.13]. Öz müşahidə və təhlilərini keçmişdən (öz ifadəsi ilə, "Kartezian dilçiliyi"ndən) başlayan tədqiqatçı "indi" adlandırdığı ikinci hissədə "universal qrammatika" tədqiqinin, faktiki olaraq, insanın intellektual qabiliyyətlərinin təbiətinin tədqiqi olduğunu bildirir və "universal qrammatika" səviyyəsində insan intellektinin müəyyən ümumi xüsusiyyətlərini təyin etməyə cəhd göstərir" [Xomski: 2006, s.13].

Əsasını qoyduğu və inkişaf etdirdiyi linqvistik nəzəriyyənin gələcəyini N.Xomski necə görür? Bu suala ilk mükəmməl cavabı müəllif "Dil və təfəkkür"ün üçüncü hissəsində vermişdir. Burada diqqəti çəkən əsas məsələ antroposentrizmin daha da genişləndirilməsi – insanın kompleks tədqiqində dil amilinin daha cəsarətlə önə çıkılməsidir: *"Müəllif insanın dil səriştəsini təyin edən prinsiplərin insan həyatının digər sahələrinə də tətbiq oluna biləcəyi qənaətinə gəlir. Lakin onu da qeyd eləmək lazımdır ki, burada linqvistik struktur anlayışlarının anlamın digər sistemlərinə tətbiqinin genişləndirilməsi məsələsi açıq olaraq qalır"* [Xomski: 2006, s.14].

N.Xomskinin dilçilik axtarışlarında son hadisələrdən ən maraqlısı, yəqin ki, "Minimalist proqram" ola bilər ki, keçən əsrin 90-cı illərinin birinci yarısında ortaya çıxaraq geniş şöhrət qazanmışdır. Proqrama görə, "dil haqqında təsəvvürlər minimaldır. Dildə şifrələnmiş bütün əsas informasiya insanın dil bilgisi ilə bilavasitə bağlı olan digər koqnitiv modullar (anlam modulları) üçün də mümkün olmalıdır ... İnsanın dil kompetensiyası bizə danışmaq, başa düşmək, soruşmaq imkanı verən realizə sisteminin (performanse system) bir hissəsi hesab

olunur [Xomski: 2006, s.11].

Ümumiyyətlə, N.Xomskinin əsərlərinin aşağıdakı ardıcıllığı onun yaradıcılığında, başqa sözlə, dünyagörüşündə deduktiv metodun hansı mərhələlərlə daha geniş yayıldığını, daha müqyaslı sahələri ehtiva etdiyini göstərir: "Sintaktik strukturlar" (və "Sintaktik nəzəriyyənin aspektləri") → "Dil və təfəkkür" → "Minimalist proqram".

A.Məmmədovun qeyd etdiyi kimi, *"minimalist proqram öz inkişafının erkən mərhələsindədir. Son illər ərzində bu istiqamətdə aparılan tədqiqatlar öncə məlum dil hadisələrinin yenidən nəzərdən keçirilməsinə, eləcə də daha çox tipoloji cəhətdən müxtəlif dilləri səciyyələndirən yeni hadisələrin aşkarlanmasına təkan vermişdir"* [Xomski: 2006, s.11].

Müşahidələr göstərir ki, dilin tədqiqinə deduktiv yanaşmanın tətbiqi kifayət qədər qədim köklərə, intuitiv səciyyə daşısa da, müəyyən rüşeymlərə malikdir. XX əsrin ortalarından N.Xomskinin bu köklərə, rüşeymlərə qayıtması ilə deduksiyanın dilin fəaliyyət miqyasından çıxarılıb təfəkkürə, ümumən, insan fenomeninin dərkinə yönəldilməsi və bu zaman dilin özündən ən mötəbər material kimi faydalanmaq cəhdləri, heç şübhəsiz, müəyyən aspekt və üsullarla təzahür edir.

## ƏDƏBİYYAT


**1.** Xomski N.A. Dil və təfəkkür. Bakı: Kitab aləmi, 2006, 152 s.

**2.** Chomsky N.A. Syntactic structures.Hague-Paris:Mouton, 1957, 117 p.

**3.** Chomsky N.A. Aspects of the theory of syntax. Massanchusetts: The M.İ.T. Press, 1965, 251 p.

**4.** Putnam H. Some issuesin the Theory of Grammar. "Structure of Language and İts Mathematical Aspects" (Proseedings of Symposia in Applied Mathematics, vol.XIII, 1961, pp-25-42.


**GİSMAT JAFAROV**

**DEDUCTIVE METHOD IN NOAM CHOMSKY'S LINGUISTIC RESEARCHES**

**SUMMARY**

The article examines the technique of using the deductive method in the teaching of N.Chomsky's linguistic studies, the deductive method formed a new stage. Thus, bringing linguistics closer to technical subjects by a prominent language engineer has expanded the possibilities of his deductive approach. Of course, the deductive method had a certain tradition even before N.Chomsky. However, N.Chomsky's research has influenced mathematical linguistics based on the use of this method.

**Key words:** *Language, method, deductive, N.Chomsky.*

**ГИСМАТ ДЖАФАРОВ**

**ДЕДУКТИВНЫЙ МЕТОД В ЛИНГВИСТИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ НОАМА ХОМСКОГО**

**РЕЗЮМЕ**

В статье рассматривается техника использования дедуктивного метода в учении Н.Хомского. С лингвистическими исследованиями Н.Хомского дедуктивный метод сформировал новый этап. Таким образом, сближение лингвистики с техническими дисциплинами выдающимся инженером-лингвистом расширило возможности дедуктивного подхода. Конечно, дедуктивный метод имел определенную традицию и до Н.Хомского. Однако исследования Н.Хомского, основанные на использовании этого метода, оказали влияние на математическую лингвистику.

**Ключевые слова:** *язык, метод, дедуктивный, Н.Хомский.*